# CONTENT

## *IMADEDDIN NASIMI – 650*


**1. Order of the President of the Republic of Azerbaijan on declaring the Year of Nasimi in the Republic of Azerbaijan in 2019** ........................................6
**2. Mamedova K.** Imadeddin Nasimi– the sun, born in the horizons of eternity ........................................7


## *GENERAL PEDAGOGICAL PROBLEMS*


**3. Abbasov A.** What should be the textbooks on the native language? ........................................15
**4.Kazumov M.** Ways of grafting national mentality to schoolchildren ........................................20
**5. Asadova I.** The working system of the teaching staff in conjunction with the Center for Support of Education ........................................25
**6. Kazumova S., Tagiyeva R.** The problem of the formation of ecological culture among students of general education schools ........................................32


## *PRESCHOOL EDUCATION*


**7. Sadigova T.** The role of the pedagogical tact of parents in the formation of a preschooler as a person ........................................37
**8. Mamedova Y.** Basic perspectives of pre-school education ........................................42
**9. Bayramova F.** School in educational organizations ekologocal education of children ........................................46


## *TEACHING OBJECTS AND ADVANCED EXPERIENCE*


**10. Abbasova S.** The role of hearing and understanding in establishing proper communication ........................................50
**11. Kerimova A.** Some methodological problems of using math games in the development of educational process ........................................55


## *PSYCHOLOGY AND DEFECTOLOGY*


**12. Stepanova M.A.** V.P.Kashchenko and L.S. Vygotsky: to the history of the name of the science of a disabled child (with a reduction) ........................................61
**13. Mamedova A.** The influence of teacher and pupil cooperation on the formation of a pupillary personality ........................................69

## Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi insanların mənəvi-əxlaqi kamilləşməsində bu gün də mühüm əhəmiyyətə malikdir.

Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutan Nəsimi yaradıcılığı uzun illərdən bəri elmi-ədəbi fikrin diqqət mərkəzindədir. Şairin irsinin ölkəmizdə sistemli tədqiqi və təbliği ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin keçirildiyi vaxta təsadüf edir. Böyük söz ustasının 600 illiyinin YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edildiyi və beynəlxalq miqyasda qeyd olunduğu həmin dövrdən etibarən Nəsimi ilə bağlı çoxlu araşdırmalar aparılmışdır. Qüdrətli şairin yaradıcılığının üzə çıxarılan əlyazma nüsxələri əsasında öyrənilməsi Azərbaycan dili və ədəbiyyatı tarixinin tədqiqində yeni mərhələ açmışdır. Nəsiminin əsərləri ölkəmizdə dəfələrlə işıq üzü görmüşdür. Şairin əsərləri Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, kütləvi tirajla nəşr olunaraq kitabxanalara hədiyyə edilmişdir.

Ötən illər ərzində Nəsiminin xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilmiş, onun ədəbiyyatda, incəsənətdə parlaq obrazı yaradılmış, 1979-cu ildə ölkəmizin paytaxtında heykəli ucaldılmışdır.

2017-ci ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilmiş, 2018-ci ilin sentyabrında ölkəmizdə ilk dəfə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalı keçirilmişdir.

2019-cu ildə Nəsiminin anadan olmasının 650 illiyi tamamlanır. Azərbaycanın ədəbi-mədəni fikir tarixinin bu əlamətdar hadisəsinin dövlət səviyyəsində layiqincə keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" 2018-ci il 15 noyabr tarixli 689 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb, həyata keçirilməsi tapşırılmışdır.

Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

2019-cu il Azərbaycan Respublikasında "Nəsimi ili" elan edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti,**

**Bakı şəhəri, 11 yanvar 2019-cu il.**

**Kəklik Cahangir qızı Məmmədova,**
"Məktəbəqədər və ibtidai təhsil" jurnalının müxbir-redaktoru

## İMADƏDDİN NƏSİMİ – ƏBƏDİYYƏT ÜFÜQLƏRİNDƏ DOĞAN GÜNƏŞ...

**Кеклик Джахангир кызы Мамедова,**
редактор-корреспондент журнала "Дошкольное и начальное образование"

## ИМАДЕДДИН НАСИМИ – СОЛНЦЕ, РОЖДЕННОЕ В ГОРИЗОНТАХ ВЕЧНОСТИ…

**Keklik Jahangir Mamedova,**
corresponding editor of the journal "Pre-school and primary education"

## IMADEDDIN NASIMI - THE SUN BORN IN THE HORIZONS OF ETERNITY ...

**Xülasə:** Məqalədə dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin həyatı, mübarizəsi və əzablı ölümü haqqında danışılır. Qeyd olunur ki, müəyyən dövrə qədər şairin dini səbəblərə görə edam olunduğu düşünülürdü... Lakin onun edamından 10 il sonra araşdırmalar aparıldı və səbəbin şairin siyasi dünyagörüşü olduğu məlum oldu o, reabilitasiya olundu. Həmçinin qeyd olunur ki, bu günə qədər də Suriyada şairin xatirəsinə hörmətlə yanaşılır. Onun məzarı üstündə məqbərə inşa olunmuşdur. Məscidlərdə onun adına xütbələr oxunur. Məqalə analitik mahiyyət daşıyır.

**Açar sözlər:** *İmadəddin Nəsimi, mütəfəkkir şair, fəlsəfi şeir, hürufilik təriqəti, sufilik təriqəti, şairin ustadı Nəimi, Həllac Mənsur, "ənəlhəq" – "haqq məndədir", insan-allah anlayışı, siyasi-fəlsəfi şeir, poeziya və fəlsəfə, şairin edamı, şairin bəraət qazanması*

**Резюме:** В статье рассказывается о жизни великого азербайджанского поэта и мыслителя Имадеддина Насими, о его борьбе и мученической казни. Отмечается, что до некоторого времени считался, что казнили поэта из-за его религиозных побуждений… Однако после десяти лет его казни было проведено расследование и выясненео, что причиной была его политическое мировоззрение. И поет был реабилитирован. Так же отмечается, что до сих пор в Сирии чтят его память с уважением, на его могиле построен мавзолей, на мечетях читают хутьбе на его имя. Статья является аналитической по своему замыслу.

**Ключевые слова:** *Имадеддин Насими, поэт-философ, философическая поэзия, секта хуруфизма, секта суфизма, учитель поэта Наими, Халладж Мансур, «энелхаг»– «бог во мне», концепция человек*-бог, *политико-философская поэзия, поэзия и философия, казнь поэта, реабилитация поэта ;*

**Summary:** The article tells about the life of the great Azerbaijani poet and thinker Imadaddin Nasimi, about his struggle and martyrdom. It is noted that until some time it was considered that the poet's execution was executed due to his religious motives ... However, after ten years of his execution, an investigation was carried out and it turned out that the reason was his political outlook. And sings was rehabilitated. It is also noted that so far in Syria, his memory is honored with respect, a mausoleum was built on his grave, and Hutba in his name is read on mosques. The article is analytical in its intent.

**Key words:** *Imadeddin Nasimi, poet-philosopher, philosophical poetry, sect of hurufism, sect of sufism, teacher of poet Naimi, Halladzh Mansur, "enelhag" - "god in me", concept man-god, political-philosophical poetry, poetry and philosophy, the execution of the poet, the rehabilitation of the poet.*



Böyük Azərbaycan şairi və mütəfəkkiri Seyid İmadəddin Nəsimi ədəbiyyat tariximizdə ana dilli fəlsəfi şerin əsasını qoymuş, filosof, insan məhəbbətinin və gözəlliyinin tərənnümçüsü kimi şöhrət qazanmışdır. Onun fəlsəfi düşüncə nümunəsi olan şeirləri həyata, dünyaya, cəmiyyətə yeni münasibət və yanaşmanın, insanın mənəvi dünyasının, əzəmətinin bədii ifadəsidir.

Seyid Əli İmadəddin Nəsimi 1369-cu ildə qədim mədəniyyət ocağı olan Şamaxıda dünyaya gəlmiş, böyüyüb-başa çatmış, ustad alimlərdən dövrünün elmlərini öyrənmişdir. Uşaqlıq və gənclik illərində "Hüseyni","Seyid" təxəllüsləri ilə qəzəllər yazmışdır. Fəzlullah Nəimi (1340–1394) ilə tanış olub, onun məsləyini qəbul etdikdən sonra isə "Nəsimi" təxəllüsü ona dünya şöhrəti gətirdi. Qəzəllərindən birində şair öz künyəsinin (ərəb dilində "təxəllüs" deməkdir) *Əbülfəzl* (*Fəzlin atası)* olduğunu bildirir. Künyədə şairin oğlunun, yaxud sıx bağlı olduğu adamlardan birinin adının əvvəlinə "əbu" hissəciyi artırılırdı.)

Çün Nəsiminin "Əbülfəzl" oldu haqdan künyəsi,
Cümlə əsmanın hürufi ayini-əlqabındadır.

Bu beytdə Nəsimi ya özünün Fəzl adında oğlu olmasına, ya özünü fəzl sahibi hesab etməsinə, ya da Fəzlüllah Nəimiyə işarə edir. "İmadəddin" adının mənası isə "dinin sütunu " deməkdir. Məxəzlərdə şair "Seyid Nəsimi", "İmadəddin", "Nəsimi" təxəllüsləri ilə qeyd olunur.

Orta əsrlərin bəzi məxəzlərində şairin Bağdadın Nəsim məhəlləsində, Bursada,Təbrizdə anadan olduğu qeyd olunur, lakin onun Şamaxıda anadan olduğunu sübut edən dəqiq mənbələr var. XVI əsrdə yaşayan təzkirəçi Lətifi Nəsiminin "Julidəmu" ("dağınıq saçlı") ləqəbli, Şah Xəndan adlı bir qardaşı olduğundan bəhs edir. Qardaşı Nəsiminin şəriət ehkamlarına zidd olan şeirlərini oxuyaraq onun üçün narahat olur və belə bir beyt yazıb göndərir:

Gəl bu sirri kimsəyə faş eyləmə,
Xanü-xası aməyə aş eyləmə.

Şair qardaşına cavab olaraq

Dəryayi-mühit cuşə gəldi,
Kövn ilə məkan xüruşə gəldi.

beyti ilə başlayan məsnəvisini yazmışdır.Ədəbiyyatşünasların fikrincə, Nəsiminin qardaşı Şamaxıda yaşamışdır. Şamaxıda onun dəfn olunduğu qəbiristanlıq "Şah Xəndan qəbiristanlığı" adlanır. Hətta böyük şairimiz Seyid Əzim Şirvani öz məşhur şerində bu adı belə əbədiləşdirmişdir:

Mən öləndə Şahxandanda basdırın,
Çünki onun şahidi-Xəndanı var.

Nəsimi bütün ömrü boyu bir sıra şərq ölkələrinə səyahət etmiş, orada hürufilik ideyalarını yaymışdır. Bu barədə şairin şeirlərində müəyyən işarələr vardır. Bir qəzəlində o, Anadoluda (Rumda) dərviş (*abdal*) kimi yaşamasını belə qələmə alır:

Biz ki, Rum içində abdal olmuşuz,
Bu cahandan farigül-bal olmuşuz...

Şairin bir çox qəzəllərində Bursanın, Larəndin (Qaramanın), Bağdadın, Şamın, Misirin, Hələbin, Şamaxının və Bakının adları çəkilir.

"Ey Nəsimi, allah deyib ki, yer üzü genişdir.Bakı torpağını tərk et, bura sənin yerin deyildir." Çox güman ki, Nəsimi bu sözləri hürufilər Bakıda təqib olunarkən demişdir.

Başqa bir qəzəlində Bağdadın adı belə çəkilir:

Bağdada gəl, ey qasid, ilət şol xəbəri kin,
Şol şəbədəçi dilbəri-əyyarımı buldum..

Bu dövrdə Azərbaycanda vəziyyət çox mürəkkəb idi. Hələ Nəsiminin gənclik illərində Əmir Teymur İrana və Qafqaza hücum edir. Şirvan hakimi Şeyx İbrahim onunla sülh bağlayaraq Şirvan dövlətinin toxunulmazlığına nail ola bilir, lakin çox keçməmiş Qızıl Orda xanı Toxtamış Azərbaycana soxulur.Toxtamış çəkilən kimi Əmir Teymur yenidən Azərbaycanı qəsb edir. K. Marksın dediyi kimi, "Teymurun siyasəti minlərlə qadına, körpəyə, kişiyə, gəncə işgəncə verməkdən, onları qılıncdan keçirməkdən, qırmaqdan və bununla da hər yerdə dəhşət yaymaqdan ibarət idi." Teymurun ordusu Naxçıvan yaxınlığında Əlincə qalasını mühasirə edərək, onu müəyyən fasilələrlə 14 il bu vəziyyətdə saxladı. Ermənistanı və Gürcüstanı talan etdi, Azərbaycanın qədim şəhəri Qəbələni viran qoydu. Bu zamandan etibarən Teymurun oğlu Miranşah Azərbaycanda hakimiyyətə gəldi.

Nəsiminin yaşadığı dövrdə Azərbaycanda teymurilərə qarşı üsyanların ardı-arası kəsilmirdi. Bu mübarizə nəticəsiz qalmadı. Müstəqil siyasət yürüdən Qaraqoyunlular dövləti Azərbaycanda hakimiyyəti ələ aldı, 1408-ci ildə Şahrux və Miranşahın qoşunlarını məğlübiyyətə uğratdı. Bu döyüşdə Miranşah öldürüldü.

Belə ağır dövrdə yaşayan Nəsimi 1394-cü ildə (25 yaşında ikən) Bakıda Fəzlüllah Nəimi ilə görüşür və hürufilik təriqətini qəbul edir. Bu zamandan etibarən o, hürufiliyi təbliğ edən şeirlər yazmağa başlayır. Bütün ömrünü yollarda, səfərlərdə, təqiblərdə keçirir, əzablarla dolu həyat yaşayır.

1394-cü ildə Miranşah Şirvan hakimi İbrahim xanın əli ilə Fəzlüllah Nəimini tutdurub, Əlincə qalası yaxınlığında faciəli şəkildə edam etdirir. Ustadın ölümü Nəsimini və bütün hürufiləri dərindən sarsıdır. Hürufilər amansız təqiblərə məruz qalırlar. Nəsimi vətəni tərk edib, Anadoluya gedir, bir müddət orada yaşayır. Burada Nəsiminin pərəstişkarlarının sayı gündən-günə artır.

Nəsimi ilə görüşən türk şairi Rəfii özünün "Bəşarətnamə" kitabında şairə ümumxalq məhəbbətini ifadə edərək, ona yüksək qiymət verir. Nəsiminin gizli sirləri qorxmadan elan edən bir sənətkar, eşq şəhidi kimi çox sevildiyini böyük məhəbbətlə qələmə alır, eyni zamanda bu böyük zəka sahibinin aylarla, illərlə zindanlarda yatdığını ürək ağrısı ilə vurğulayır.

I Sultan Muradın hakimiyyəti dövründə Bursa və Anadoluda hürufilər ciddi surətdə təqib olunur və amansızcasına cəzalandırılırdılar. Bu şəraitdə Nəsimi orada qala bilmir və Hələb şəhərinə gedir.

Nəsimi haqqında yazan təzkirəçilərdən bəziləri onun ölümü ilə bağlı müəyyən rəvayətləri qələmə almış, əsl tarixi həqiqətləri yazmaqdan çəkinmişlər. Hüseyn Bayqaranın vəziri Kəmaləddin Hüseyn "Məcalisül-üşşaq" ("Aşiqlər məclisi") əsərində belə yazır: "Nəsiminin könül dənizi dalğalananda onun kəlmə və hərfləri incilər kimi ətrafa dağıldı. Şairin sözlərini başa düşmədilər. Hələbdə zahiri alimlərdən biri soruşdu:

–Bu cavanın üzündə nə görürsünüz ki, belə həyəcan və məstlik göstərirsiniz?

Cavab verdi:

– Onun üzünün güzgüsündə tanrının surətini görürəm.

Münkir dedi:

–Biz də o cavanı görürük, bəs nə üçün o surət bizim gözümüzə görünmür?

Şair dedi: – Bu dövlət quşu sizin qabiliyyətinizi özünə yuva etmədi və o səadət quşu sizin hümmətinizin başına kölgə salmadı.

Seyid Nəsimi ilə münkir arasında bu söhbətdən sonra şairin düşmənləri daha da çoxaldı.Valinin yanına gedərək, bir neçə yalan da artırıb xəbər verdilər."

Nəsiminin faciəli ölümü haqqında isə belə məlumat verilir: "Hələbdə şairin sevimli şagirdlərindən biri onun

Həqbin nəzəri bayəd ta ruye-məra binəd,
Çeşmi ke, bovəd xodbin key ruye-xoda binəd

("Həqiqəti görən göz lazımdır ki, mənim üzümü görsün. Xudbin göz allahın üzünü görə bilməz".)–

beyti ilə başlayan qəzəlini oxuyurmuş.

–Bu qəzəl kimindir? – deyə gəncdən soruşurlar.

– Mənim şerimdir, – deyə gənc cavab verir.

Buna görə gəncin qətlinə hökm verib, boğazından asmaq istəyirlər. Nəsimi özünü hadisə yerinə çatdıraraq deyir:

– Şeir mənimdir. O gənc mənim xatirim üçün qəzəli özünə isnad vermişdir.

Gənci buraxıb Nəsimini tutur və dərisinin soyulmasına hökm verirlər. Edam zamanı şair çox qan itirdiyindən rəngi saralır.

– Rəngin nə üçün saralır?– deyə Nəsimidən soruşurlar.

Nəsimi belə cavab verir:

– Qafil, mən əbədiyyət üfüqlərində doğan eşq günəşiyəm.... günəş batanda rəngi saralar...

Ruhanilərdən biri təklif edir:

– Bu elə məlundur ki, onun qanından hara düşsə, kəsib atmaq lazımdır.

Təsadüfən Nəsiminin qanından bir damcı həmin ruhaninin barmağına sıçrayır. Camaat onun barmağının kəsilməsini tələb edir. O isə qorxub, özünü təkzib edir :

– Mən sözməsəli demişəm.

Bu zaman al qan içində olan şair məşhur "Ağrımaz" qəzəlini söyləyir:

Zahidin bir barmağın kəssən, dönüb həqdən qaçar,
Gör bu gərçək aşiqi sər-pa soyarlar, ağrımaz.

"İmadəddin Nəsiminin qətli hekayəsi" iqtibasla "İlam ən-nubəla bitarix Hələb əş-Şəhra"da geniş əks olunub (Məhəmməd Raqib ibn Mahmud ibn Haşim ət-Təbbaq əl-Hələbi). Akademik Ziya Bünyadovun bu əsər barədə ilk dəfə "Elm və Həyat" jurnalında dərc etdirdiyi məqalə sayəsində Nəsiminin qətlinin bütün təfərrüatları aydınlaşıb: "Nəsiminin qətli əmir Yaşbək ibn Abdullah Yusifinin vaxtında olub. Ona qarşı ittiham Hələbin Ədalət Sarayında şeyximiz ibn Xətibin və Şəmsəddin ibn Əminnəddövlənin hüzurunda irəli sürülüb. Həmin an şeyxin naibi İzzəddin, malikilərin qazılar qazısı Fəthəddin və hənbəlilərin qazılar qazısı Şihabəddin də orada olublar.

...İttiham ilə onun əleyhinə hənəfilərin qazılar qazısı İbn əş-Şənqasi çıxış edib. Bu hadisə qazıların, Hələb üləmasının hüzurunda baş verib və naib Yaşbək ona (*Nəsimiyə* – Z.B.) deyir: "Söylədikləini sübuta yetirməlisən, yoxsa səni öldürəcəyəm!"

Bu sözləri eşitcək İbn əş-Şənqasi Yaşbəkin məkrli niyyətini başa düşür və ittihamdan imtina edir. Nəsimi isə ittihamları inkar edir və iki dəfə kəlimeyi-şəhadətdən savayı başqa bir söz demir. Bu anda hənbəlilərin şeyxi Şihabəddin malikilərin qazısı Fəthəddindən yuxarı başa keçir və fitva verir ki, Nəsimi zındıqdır, tövbəsi qəbul olunmadan öldürülməlidir.

O, (*Şihabəddin* – Z.B.) Fəthəddindən yuxarı başa keçib oturarkən, Fəthəddin kənara çəkilir və Şihabəddin ona deyir: "Nə üçün onun qətlinə fitva verilməsin?" Fəthəddin deyir ki, olmaya öz əlinlə ona ölüm hökmü yazmaq istəyirsən?" Şihabəddin: "Bəli!" – deyə cavab verir. Sonra o, fitva sənədini yazır, öz yazısını şeyximiz ibn Xatibə, qalan qazı və üləmaya təqdim edir. Onlar fitvaya razılıq vermirlər və Fəthəddin ona deyir: "Qazı və üləma səninlə razı olmadıqları halda, ona necə ölüm hökmü kəsə bilərəm?"

Əmir Yaşbək isə söyləyir: "Mən onu öldürə bilmərəm, çünki sultan Müəyyəd göstəriş verib ki, onu məsələdən xəbərdar edim. Sultanın Nəsimi barəsində nə kimi sərəncam verəcəyini gözləməliyəm".

Məclis bununla dağılır və Nəsimi Ədalət Sarayında dustaq qalır. Onun işi ilə sultan əl-Müəyyədi tanış etdilər. Bundan sonra Yaşbəkə göstəriş gəlir ki, dustaq zindana köçürülsün. Nəsimini aparıb qala həbsxanasına salırlar. Sonra isə Sultan Müəyyədin sərəncamı gəlir ki, Nəsimi öldürülsün, dərisi soyulsun, yeddi gün Hələbdə carmıxa çəkilib bəyan edilsin, sonra da cəsədi doğransın, bir qismi Əlibəy Zülqədərə və onun qardaşı Nəsrəddinə göndərilsin..." Beləliklə, Nəsimi

1417-ci ildə, 48 yaşında ikən Hələbdə, faciəli şəkildə edam olundu. Şairin məzarı bu günə qədər də ziyarətgah hesab olunur və onu ziyarətə gələnlərə hörmət əlaməti olaraq "nəsimi" adı verilir.

Abbas əl-Əzzavi "İraq tarixi" əsərində Nəsiminin ölümü haqqında belə yazır: "Nəsiminin təhlükəsi artmışdı, səsi yayılmışdı, ona uyanlar çoxalmışdı.Təriqətinin genişlənməsi qorxusu aləmi bürümüşdü. Şairlik gücü ilə təbliğat aparması mühakimə edilməsinə yol açmışdı. Aşqın və daşqın sözləri ilə islam etiqadını cığırından çıxardığı anlaşılmışdı. Nəsimi ustadı Fəzlüllahdan daha çox səs salmış, hürufilik yoluna sapanlar arasında yüksək mövqe qazanmışdı. Heç kimin etmədiyini o etmişdi. Nəsimi olmasaydı, hürufilik sönər, bitərdi. Fəzlüllahın qorxub açmadığını bu, açıqca ortaya atmaqdan çəkinməmişdi. Şeirləri xalq arasında hava ilə oxunurdu.Gözəl bədii üslubu ilə dinləyiciləri sarsıdırdı.

Nəhayət, Hələbdə təbrizli Nəsiməddin öldürüldü. Onu sevənlər də, sevməyənlər də vardı. İranlılar onu özlərindən sayırdılar, özünü təsəvvüf nümayəndələrinin irəli gələnlərindən sayırdılar. O, yaman və cəsur bir şairdir" (3)

Hürufilərin bu mübarizəsində Nəsiminin səsi əzəmətlə səslənir. Şair ustadının elmi-fəlsəfi baxışlarını poeziyanın dili ilə tərənnüm edir, hürufi şərqiləri şəklində bütün şərq dünyasına səs salırdı.

Nəsimi Azərbaycan ədəbiyyatı tarixində siyasi-fəlsəfi şerin ilk böyük nümayəndəsidir. Onun şeirlərində poeziya ilə fəlsəfə birləşir, əqidə hissə, duyğuya üstün gəlir. Şair insana fərqli münasibət bəsləyir, ictimai ədalət və həqiqət axtarır, insanı daim yüksəklərdə görür. Öz yaradıcılığını xalqın taleyi ilə bağladığına görə onun qəzəlləri yeni ruhu ilə seçilirdi.

Nəsimi dövründə bir məslək, əqidə kimi geniş yayılmış hürufiliyin əsasında insana yeni münasibət, *yeni insan* anlayışı dururdu. Bu təriqətin yaradıcısı Fəzlüllah Nəimi, vətəni Azərbaycan idi. Bu hərəkat Təbrizdən başlayaraq bütün Yaxın və Orta Şərq ölkələrini bürümüşdü.

Sufi–panteist şeirlərində Nəsimi *insan-allah* anlayışını irəli sürür, zərrədə günəş axtararaq varlığın vücudların vəhdətindən yarandığını irəli sürür...

Zərrə mənəm, günəş mənəm,çar ilə pəncü-şeş mənəm,

Surəti gör bəyan ilə, çünki bəyanə sığmazam.

("Çar ilə pəncü şeş mənəm" dedikdə bu vəhdət nəzərdə tutulur : *çahar* – dörd ünsür: torpaq, su, hava, od; *pənc*–beş duyğu hissi; *şeş*– altı səmt, istiqamət.)

Şairin lirik qəhrəmanı (eyni zamanda özü) mütəfəkkir bir aşiqdir. Ali bir eşq onu kamala çatdırır və öz yaradanı ilə qovuşdurur. Bu mütəfəkkir, aşiq insan bütün qüsurlarından təmizləndiyi üçün zirvələrə yüksəlir, nəhayət həyat faciəsindən, kədərdən xilas olur. Nəsiminin fikrincə, məhz belə bir insanın Həllac Mənsur kimi (Hüseyn ibn Mənsur Həllac, X əsr) "ənəlhəq" – "mənəm haqq, haqq məndədir" deməyə tam haqqı vardır. Ən böyük yaradıcı, ən böyük həqiqət, sirlər mənbəyi də elə insanın özüdür.

Nəsimi poeziyasında aşiq – "haqqı tapmış insan" deməkdir. Dərin mühakimələrdən sonra o, haqqı göylərdə yox, insanın özündə tapır və onun varlığında yaradanla yaradılanın birləşdiyi qənaətinə gəlir:

Səni bu hüsnü-camal ilə, kamal ilə görüb,
Qorxdular haqq deməyə,döndülər insan dedilər

Nəsimiyə görə, insanda haqqı görməyən heç vaxt həqiqəti duya bilməz. Haqqı isə ancaq kamil və yetkin insan görə bilər. Kamil insan öz ağlı və insanlara məhəbbəti ilə insanların gözləri qarşısından zülmət pərdəsini qaldırmağa qadirdir.

Sufilikdə məhəbbətə, hürufilikdə isə idraka üstünlük verilirdi. Hürufilərə görə, ağılla kainatı, təbiəti və insanı dərk etmək olar. Ağılın əsasında isə səs, söz və hərflər durur. Bu mənada hürufilikdə hərflər və rəqəmlərin öz aləmi vardır. İnsan öz idrakı ilə "ənəlhəq" məqamına yüksələ bilər. Bu baxımdan "Məndə sığar iki cahan..." qəzəlini Nəsiminin şah əsəri adlandırmaq olar.

Məndə sığar iki cahan, mən bu cahana sığmazam,
Gövhəri-laməkan mənəm, kövnü-məkana sığmazam.

Nəsimi maddi və mənəvi dünyaları özündə birləşdirən insanın bu cahana sığmamasını iki dünyanın bir dünyaya yerləşməməsi kimi əsaslandırır. Bu dünyaya sığmayan insanın cismi, yəni bədəni deyil, ağlı və idrakıdır. İnsan cismən yox, ruhən öz dünyasına sığmır və "ənəlhəq" səviyyəsinə yüksəlir. Bu, kamil insandır. İnsanın fikir və xəyalının sabit, daimi yeri yoxdur, o, məkansızdır, öz dünyasından çox-çox uzaqlarda (allah kimi), hər yerdə mövcuddur. Nəsimi "ənəlhəq" deyəndə bunu nəzərdə tuturdu.

Nəsimi bu qəzəli ikiliklərin nisbəti üzərində qurmuşdur. Qəzəl başdan başa ikiliklərdən *(kövn-məkan;ərş-fərş;kaf-nun; şərh-bəyan; zənn-güman; cism-can; sədəf-inci; pir-cavan; zərrə-günəş; şəms-qəmər; dəhr-zaman; əncüm-fələk; qumaş-rəxt; həşr-sirat; bəhr-kan* və s.) ibarətdir. Şairin fikrincə, bütün aləm–yer, göy, təbiət insan, cəmiyyət bu ikiliklərin təzadları, əksliklәri üzərində qurulmuşdur. Bu ikiliklər, əksliklər yalnız insanda vəhdət tapa, birləşə bilər və ən böyük, kamil insan da belə insandır. Öz daxilində ikiliyi öldürmək – insanın öz heyvani nəfsinə qalib gəlməsi deməkdir. Eşqə, idraka üstünlük verən insan ilahiləşir, nəfsin əsirinə çevrilən insan onun qulu olur, ləyaqətini itirir. "İkilik pərdəsindən keçib, birlik bacasından baxan insan gizli sirləri görə bilər. Gizli sirləri görən və anlayan isə allahdır".

Qəzəl Azərbaycan ədəbiyyatı tarixində ilk dəfə işlənən *rəcəz* ( *döyüş, hərbi yürüş* deməkdir) bəhrində yazılmışdır. Bu fakt əsərin döyüş, mübarizə ruhlu olduğunu bir daha təsdiq edir.

İnsanın özünüdərki Nəsimi yaradıcılığında xüsusi yer tutur. Şairə görə, insan həyatı aşağıdakı mərhələlərdən ibarətdir*: şəriət, təriqət, mərifət və həqiqət.* Bu mərhələlərdən keçən insan müdrikləşir, həqiqəti axtarıb tapır, haqqa qovuşur. Deməli, Nəsimi belə hesab edirdi ki, sirləri anlamaq üçün insan ağlı tərbiyəyə möhtacdır. Bunun üçün də hər bir insan özünə mürşid (ustad) tapmalı, ona həmişə sadiq qalmalıdır. Təsadüfi deyil ki, Nəsiminin əsərlərində Həllac Mənsur və Nəiminin adları hörmətlə çəkilir. Şair özündən təxminən dörd yüz il əvvəl yaşamış Həllac Mənsuru belə tərənnüm edir:

Ey könül, Mənsur "ənəlhəq" söylədi,
Həqq idi, həqqi dedi, həqq söylədi...
Mərifət sirrini mütləq söylədi,
Arif əmənna-vəsəddəq söylədi...

Başqa bir tuyuğunda Nəsimi F.Nəimiyə olan ustad məhəbbətini , onunla əqidə birliyini belə ifadə edirdi:

Bir əcaib şahə verdim könlümü,
Bədr üzlü mahə verdim könlümü,
Ta ki, Fəzlüllahə verdim könlümü,
Uş həqiqi rahə verdim könlümü!

Şairin fikrincə, bu iki böyük insan mərdlik, fədakarlıq, idrak mücəssəməsidir. O, dünyada ən böyük, müdrik insan hesab etdiyi Nəiminin faciəsinə matəm saxlamış, ömrünün sonuna qədər onun ideyalarını yaymaqdan, təbliğ etməkdən usanmamışdır.

Prof. Q.Paşayev yazır: "Nəsimi divanının İraq nüsxəsi üzərində tədqiqat apararkən qəribə bir mənzərənin şahidi olmuşdum. Divan nüsxəsində yer alan 400-ə qədər şerin üçdə bir hissəsindən çoxu Allaha, islam dininə, peyğəmbərimizə və başqa müqəddəslərə həsr olunub. Bu şeirlərdən belə qənaətə gəlmək olur ki, Nəsiminin Allaha sevgisi hüdudsuzdur. Belə olan halda onun allahsızlıqda təqsirli bilinərək qətlə yetirilməsi nə qədər inandırıcıdır? Apardığımız tədqiqatlar bizim haqlı olduğumuzu sübut etdi. Hələb canişini Yaşbək Abdulla əl-Yusifinin israrla şairin ölümünə fitva verilməsini tələb etməsinə baxmayaraq, Hələb qaziləri fitvadan imtina etmişdilər. Bəlkə bu işdə şairin dini şeirləri də onların dadına çatmışdı, bilmirəm. Gün kimi aydındır ki, Nəsimi kafirlikdə suçlu bilinərək edam edilsəydi, məsciddə dəfn olunmazdı, ona məqbərə tikilməzdi. Türbəsi ziyarətgaha çevrilməzdi. Adına küçə qoyulmazdı, təkyəsi olmazdı. Təkyənin üstündə "Həzrət Nəsimi", türbəsinin üstündə "Şeyx Nəsimi", "Allahın dostu" yazılmazdı". (2)

Bəs nə üçün Nəsimi dinsizlikdə ittiham edilərək edam olunur?
Sultan Müəyyəddin əmrinə əsasən, şairin dərisini soyaraq boynunu vurub, cəsədini çarmıxa çəkirlər. Əmrdə xüsusi vurğulanırdı: "Carçı car çəksin. Hələbdə yeddi gün göstərilsin. Sonra da əl-ayağı kəsilsin, bir parçası Zülqədər oğlu Əlibəyə, qardaşı Nəsirəddin və Osman Qarayölükə göndərilsin, çünki Nəsimi onların inanclarını (etiqadlarını) pozmuşdur. Bunun üzərinə Nəsimi öldürülür". (1, səh.14.)

Zülqədər oğlu Əlibəy və qardaşı Nəsirəddin Qaraqoyunlu türkmən tayfalarının, Osman Qarayölük isə Ağqoyunlu türkmən tayfa ittifaqının başçısı idilər (1394–1434). Onlar Osmanlı sultanlığının, o cümlədən, Misir sultanı Müəyyədin siyasi düşmənləri idilər. Guya Zülqədər oğlu Əlibəyi və qardaşı Nəsirəddini, Osman Qarayölükü Nəsimi yoldan çıxarmışdı. Həqiqət naminə deməliyik ki, Nəsimi Ağqoyunlu və Qaraqo yunlular dövlətinin yeritdiyi siyasəti dəstəkləyirdi. Sultan Müəyyəd isə Nəsiminin xalq arasında böyük nüfuza malik olmasından xəbərdar idi.

Sultan Müəyyəd, çox güman ki, Hələbdə Nəsiminin türkmənləri ona qarşı qaldıracağından ehtiyat edirmiş. Onun Nəsimini aradan götürməyə çalışması, bəlkə də bununla bağlı olmuşdur, Sultan Müəyyədin əmrindən də görünür ki, Nəsimi dinə qarşı təqsirli bilinərək öldürülməyib. Sultan Hələb şeyxi, qazılar və din xadimlərinin rəyini qulaqardına vura bilməzdi. Onlar Nəsimini dinə qarşı çıxmaqda təqsirli bilməmişdilər. Belə olan halda, Sultan Müəyyəd əsl həqiqəti açmalı olmuşdu.Onu Əlibəyi, qardaşı Nəsirəddini, Osman Qarayölükü yoldan çıxarmaqda, osmanlılarla onun arasında düşmənçilik toxumu səpməkdə təqsirli bilərək, edamına əmr vermişdi.

Şeyx Kamil əl-İzzinin kitabında Yaşbək Abdulla əl-Yusifinin şəxsiyyəti və kimliyi barədə də diqqətçəkən məlumat vardır. Kitabdan məlum olur ki, Yaşbək cahil, pozğun, qəddar və tamahkar bir adam imiş. Əl-Müəyyəd Trablis hakimi olarkən onu min dinara alıbmış. Qəddarlığına, pozğunluğuna və tamahkarlığına görə, o, Nəsiminin qətlindən cəmisi 4 il sonra – hicri, 824-cü ildə öldürülmüşdü.

Nəsiminin edamından on il sonra Hələb məhkəməsinin işə yenidən baxması, əvvəlki ədalətsiz hökmü ləğv etməsi, artıq tarixə qovuşmuş şairə bəraət verməsi hər şeyi kökündən dəyişdi. Şairin Suriyada, məsciddə dəfn olunması, adına küçə qoyulması və s. bununla bağlıdır. Hicri 910-cu ildə Sultan Qansuh əl-Quri öz qələbəsi şərəfinə şairin əbədi uyuduğu məscidi bərpa etdirib. Burada Nəsimiyə məqbərə tikilib. Türbəsi hələ orta əsrlərdən ziyarətgaha çevrilib. Bəkir ən-Nasirin göstərdiyi kimi, divarlarda Nəsimi sənətini əks etdirən Azərbaycan və ərəb dillərində kitabələr və şeirlər yazılmış lövhələr asılıb. Nəsiminin Hələbdə adına küçə qoyulması, hələ XVII əsrdə Hələbi ziyarət edən türk səyyah-alimi Övliya Çələbinin onu "Şeyx Nəsimi" adlandırması, Hələbdə Nəsimi təkyəsinin olmasından söz açması, təkyənin bu günə qədər mövcud olması, Nəsiminin nəslinin Hələbdə zəmanəmizə qədər davam etməsi çox mətləblərdən söz açır, şairin mühiti, həyatı və yaradıcılığına yeni dəyərlər nöqteyi-nəzərindən baxmaq zərurətini ortaya qoyur.

Nəsiminin şəxsiyyətinə ulu öndərimiz Heydər Əliyevin münasibəti maraq və qürur doğurur.- 1970-ci illərin əvvəllərində Heydər Əliyev Suriyaya rəsmi səfər edərkən Nəsiminin qəbrini ziyarət etmək istədiyini bildirir. Məzarı ona göstərirlər. Mütəfəkkir fikirləri ilə dünyaya meydan oxuyan Nəsiminin məzarının vəziyyəti ulu öndərdə təəssüf hissi yaradır.

Heydər Əliyev vətənə qayıdandan sonra aradan bir neçə ay keçir. Bir müddət sonra şairin məqbərəsi ətrafında gedən bərpa işləri diqqəti cəlb edir. Tikintidə əsas diqqətçəkən məqamlardan biri işçi qüvvəsindən tutmuş (ustası, fəhləsi) tikinti materiallarına– qumuna, sementinə, daşına qədər hər şeyin Azərbaycandan göndərilməsi olur. (Əgər bu hadisə bizim ölkəmizdə baş versəydi, qonağa məqbərəni göstərənə qədər, gecə ilə onu üzərini qaydaya salardılar. Bu, bizim mentalitetimizdir.)

Sonda Hələb şəhər müftisi doktor Mahmud Əkkamın Suriya Ərəb Cümhuriyyətinin Hələb şəhərində, 2008-ci ildə Beynəlxalq Nəsimi forumunda oxunan məruzəsindən "Üzrxahlığ"ı olduğu kimi verməklə bu yazını bitirirəm: "Möhtərəm qardaşlar! 591 il bundan öncə bəşər tarixində ən faciəli hadisələrdən biri baş vermiş, Azərbaycanın böyük şairi və filosofu, parlaq istedad sahibi olan

mütəsəvvüf Vəli ul-İllah (Allahın dostu) Seyyid Əli İmad əd-Din Nəsimi vəhşicəsinə edam olunmuşdur.

Bu gün biz xəcalət çəkirik ki, bu müdhiş faciə tarixə bizim Hələb şəhərinin adı ilə bir yerdə düşmüşdür. Doğrudur, həmin faciə şəhərimizdə hökmranlıq edən əcnəbilər və onların havadarları tərəfindən törədilmişdir, lakin Nəsiminin günahsız qanı məhz burada axıdıldığı üçün mən, müasir Hələbin dini icmasının rəhbəri kimi, sizdən dönə-dönə üzr istəyirəm!

Mən çox vaxt dindaşlarım önündə xütbə oxuyanda Nəsiminin acı taleyini yada salır, ona Allahdan rəhmətlər diləyir, ruhuna dualar səsləndirirəm.

Tarixi-elmi mənbələrdə öz əksini tapmış məlumata görə, bu edamdan on il sonra Hələb məhkəməsi işə yenidən baxıb, əvvəlki ədalətsiz hökmü ləğv etmiş, artıq tarixə qovuşan şairə, gec də olsa, bəraət vermişdir.

Bununla belə, bu gün mən sizdən üzr istəməyə daxili, mənəvi ehtiyac duydum və acizanə təvəqqe edirəm ki, mənim üzrxahlığımı qəbul edib, bütün Azərbaycan xalqına çatdırasınız. Bu, tək mənim yox, cəmi Hələb müsəlmanlarının xahişidir". (4, səh.128-129).

Mən bu mətndə dr. Mahmud Əkkamın Nəsiminin taleyinə münasibətdə işlətdiyi "acınacaqlı" sözünü bilərəkdən "acı" sözü ilə əvəz etdim. Nəsiminin taleyi hər nə qədər acı olsa da, acınacaqlı deyil... çünki bu, bir mütəfəkkir, dahi, şair və qəhrəman taleyidir....

**Məqalənin elmi yeniliyi**. Məqalədə İ.Nəsimi haqqında əlavə məlumatlar əhatə olunmuş, onun edamının əsl səbəbi açıqlanmış, bu edamın səbəbkarlarının əsl siması aşkar olunmuş, ərəb xalqının üzrxahlığı səsləndirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti**. İ.Nəsimi haqqında yeni məlumatlardan həm şagirdlər, həm müəllimlər, həm də tədqiqatçılar bəhrələnəcəklər.

**Ədəbiyyat**

1. Araslı H. İmadəddin Nəsimi. Bakı, "Azərnəşr", 1972
2. Paşayev Q. Edamdan sonra başlanan həyat. "525-ci qəzet", 06.05.2019
3.Rzazadə Ə. Nəsiminin edamı haqqında. *Strateq.az*
4. Cəfəroğlu Bəhram. Şərqin reformisti – İmadədəin Nəsimi! www.nezermedia.az.)
5. Qurbansoy Hacı Firudin. İmadəddin Nəsimi. Bakı: "Elm", 2019.

**Rəyçi: prof.Y.Ş.Kərimov**
**E-mail: seher1960@mail.ru**
**Redaksiyaya daxil olub: 01.07. 2019.**